# AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

# Q Ə R A R

**“Azərbaycan Hava Yolları” Qapalı Səhmdar Cəmiyyətinin Nizamnaməsinin və strukturunun təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 30 aprel tarixli 105 nömrəli Qərarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 30 aprel tarixli 105 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 4, maddə 324, № 10, maddə 929, № 12, maddə 1117; 2013, № 6, maddə 765, № 8, maddə 1019; 2014, № 2, maddə 218; 2016, № 3, maddə 578, № 12, maddə 2235; 2017, № 3, maddə 481, № 7, maddə 1504; 2019, № 4, maddə 755, № 5, maddə 948; 2020, № 5, maddə 654; 2021, № 6 (IV kitab), maddə 685; 2022, № 5, maddə 556) ilə təsdiq edilmiş “Azərbaycan Hava Yolları” Qapalı Səhmdar Cəmiyyətinin Nizamnaməsi”ndə aşağıdakı dəyişikliklər edilsin:

1. 6.3-cü bəndə “birinci” sözündən əvvəl “iki” sözü əlavə edilsin və həmin bənddə “digər vitse-prezidentlərindən” sözləri “dörd vitse-prezidentindən” sözləri ilə əvəz olunsun.
2. 6.7-ci bəndin ikinci cümləsində “birinci vitse-prezidentinin” sözləri “Müşahidə Şurasının müəyyən etdiyi birinci vitse-prezidentin” sözləri ilə əvəz edilsin.
3. 7.2-ci bəndə “müvəqqəti olaraq” sözlərindən sonra “Cəmiyyətin Müşahidə Şurasının müəyyən etdiyi” sözləri əlavə edilsin.

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 3 noyabr 2022-ci il

№ 403